***Azərbaycanın qeyri-neft sektorunda önəmli yer tutan turizm ölkə iqtisadiyyatının daha da güclənməsinə xidmət edir. Son illər bu sahənin inkişafına göstərilən diqqət və qayğı nəticəsində Azərbaycanda geniş turizm infrastrukturu yaradılmış, yeni mehmanxanalar, istirahət guşələri istifadəyə verilmiş, ölkəyə turistlərin cəlb olunması üçün mühüm layihələr reallaşdırılmışdır.***

***Biz ölkəmizin turizm imkanlarını daha geniş şəkildə təbliğ etməliyik. Çünki bizim gözəl təbiətimiz var, istənilən turizm növü Azərbaycanda mövcuddur.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan yaxın gələcəkdə turizm ölkəsinə çevriləcək



Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında geniş nitq söyləyən Prezident İlham Əliyev ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmişdir. Ölkə başçısı demişdir: "Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edir. Biz buna nail olmuşuq və gələcəkdə, əlbəttə, çalışmalıyıq ki, qeyri-neft sektoru bizim ixrac strukturumuzda da daha böyük çəkiyə malik olsun."

Ölkəmizdə turizm sahəsi böyük perspektivlərə malikdir. Turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini və s.) inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb. Turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində həyata keçirilən davamlı tədbirlər öz real nəticələrini verməkdədir. Əsas məqsəd turizmin ölkə iqtisadiyyatının ən dayanıqlı, effektiv və rəqabətə davamlı sahəsinə çevrilməsindən ibarətdir.

Ölkəmizdə turizmlə bağlı müsbət dinamika güclənməkdədir. Hər il Azərbaycanda 25-50 yeni mehmanxana, hotel, motel və digər turist yerləşdirmə obyektinin təməli qoyulur. Bundan başqa, iş adamlarında turizm sahəsinə böyük maraq yaranıb.

Qeyd etdik ki, qeyri-neft sektorunun inkişafında turizmin öz yeri, ölkəmizdə bu sahənin inkişafı üçün zəngin potensial var. Prezident İlham Əliyev bir neçə mühüm sahə ilə yanaşı, Azərbaycanda turizmin inkişafını da qeyri-neft sektorunun əsas istiqamətlərindən biri elan edib və bu istiqamətdə atılan addımlar artıq öz bəhrəsini verir. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycanda turizmin inkişafı sürətlə gedir, yeni hotellər, istirahət zonaları, beynəlxalq səviyyəli turizm kompleksləri açılır. Son illər ölkəmizin uğurlu sosial-iqtisadi inkişafı, möhkəm daxili sabitlik respublikamıza turist axınını şərtləndirən əsas amillərdəndir.



Azərbaycanın coğrafi baxımdan əlverişli məkanda yerləşməsi, flora və fauna növlərinin müxtəlifliyi, Xəzər dənizi, infrastruktur təminatının yaxşılaşdırılması turizmin imkanlarını daha da artırır. Görülən tədbirlərin nəticəsidir ki, son illər ölkəmizin regionlarına gələn həm yerli, həm də xarici turistlərin sayı artmaqdadır.

Ölkəmizdə turizm infrastrukturunun müasir standartlara uyğunlaşdırılması, mövcud turizm məhsullarının təkmilləşdirilməsi sahənin perspektiv inkişafına imkan verir. Zəngin potensialı olan paytaxt Bakı ilə yanaşı, ölkənin bütün bölgələrində turizm obyektləri yaradılır. Bu gün dövlət siyasətində hər bölgənin turizm potensialı və ənənələri əsas götürülməklə, müvafiq infrastrukturun qurulmasına xüsusi diqqət yetirilir, başqa sözlə desək, ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Qısa müddətdə Azərbaycanın müxtəlif bölgələrində turist marşrutları üzrə mükəmməl infrastruktur şəbəkəsi yaradılması və müasir turist yerləşdirmə obyektlərinin istifadəyə verilməsi bunun təsdiqidir. Ölkəmizin reytinqinin yüksəlməsində mühüm rol oynayan Şahdağ Qış-Yay Turizm Kompleksi belə yüksək səviyyəli obyektlərdəndir. Bu kompleks dünyadakı oxşar turist obyektlərindən nadirliyi və universallığı ilə fərqlənir.



Başqa bir beynəlxalq səviyyəli turizm mərkəzi "Tufan" Dağ-Xizək Qış İstirahət Kompleksi son üç ildir Azərbaycanın dilbər guşələrindən olan Qəbələ rayonunda yaradılır. Bu iri kompleksin yaradılması göstərir ki, Azərbaycanda turizmin inkişafı və bu sahədə infrastrukturun yaradılmasına, həqiqətən, böyük qayğı var. Bu layihə çərçivəsində indiyədək nəhəng infrastruktur yaradılmış, avtomobil yolu çəkilmiş, torpaq sürüşməsinin qarşısının alınması üçün mühafizə tədbirləri görülmüşdür.

Son üç il ərzində Bakıda bir neçə beşulduzlu otel açılmışdır. Bu otellər dünyanın ən yüksək keyfiyyətli otelləri sırasına daxildir. "Fourseasons", "Fairmont", "Marriott", "Hilton", "Kempinski", "Cumeyrah", "Sheraton", "Hyatt" kimi otellər Bakıda yerləşir. Yəni, biz bunu ancaq dünyanın inkişaf etmiş şəhərlərində müşahidə edə bilərik.

Mədəniyyət və Turizm Nazirliyinin "elektron hökumət" Dövlət İnformasiya Sistemi" (EHDİS) portalına qoşulmaq üçün müvafiq işlər aparılmış, nazirliyin e-xidmətlər saytında (www.e-services.mct.gov.az) müxtəlif interaktiv xidmətlər göstərilmişdir. Hazırda turizm, mehmanxana, mehmanxana tipli obyektlərə və turizm fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərə icazələrin, lisenziyaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu yalnız e-xidmətlər vasitəsilə həyata keçirilir.

Azərbaycanda zəngin müalicəvi kurort mərkəzlərinin yaradılması istiqamətində də işlər davam etdirilir. Hazırda ölkəmizin turizm siyasətində belə mərkəzlərin yenidən qurulması əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilir. Məsələn, Naftalan əvvəlki şöhrətini özünə qaytarır. Burada üç gözəl otel fəaliyyət göstərir. Qalaltı Kurort-Müalicə mərkəzi də turistlərin müraciət etdiyi əhəmiyyətli turizm obyektidir.

Hazırda Azərbaycan turizm sahəsində geniş beynəlxalq əlaqələr qurur. Belə ki, respublikamız turizm sahəsində inkişaf etmiş ölkələrlə əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalayıb.Respublikamızın turizm təşkilatları son illər Dünya Turizm Təşkilatının (DTT) tədbirlərində yaxından iştirak edirlər. Ölkəmizi təmsil edən bir neçə turizm şirkəti də DTT-nin assosiativ üzvləri sırasına daxil olub. Bu isə, öz növbəsində, DTT-yə üzv ölkələrdə respublikamızın tanınmasına və turizm potensialının təbliğinə geniş imkanlar açır.

Azərbaycan hər il dünyanın böyük şəhərlərində təşkil olunan beynəlxalq turizm sərgilərində iştirak edir. Bu yaxınlarda isə Pekində "COTTM-2016" beynəlxalq turizm sərgisində də Azərbaycanı Mədəniyyət və Turizm Nazirliyinin yerli turizm şirkətləri və "Azərbaycan Hava Yolları" QSC-nin nümayəndələri təmsil etmişlər. Sərgidə ölkəmizin turizm imkanlarının təbliğ olunması üçün nazirlik tərəfindən 39 kvadratmetrlik pavilyon icarəyə götürülmüşdür. Burada Azərbaycanın rayonlarını, paytaxt Bakını, ölkəmizin təbiətini, mili mətbəximizi, turizm potensialını təbliğ etmək məqsədilə ingilis və Çin dillərində müxtəlif növ reklam-çap məhsulları nümayiş etdirilmişdir. Beynəlxalq sərgiyə Azərbaycanla yanaşı, 65 ölkədən 300-ə yaxın şirkət qatılmışdır. Bu sərgiyə Azərbaycan 5-ci dəfə idi ki, qatılırdı. Qeyd edək ki, ötən il Çindən ölkəmizə 5 mindən çox turist səfər edib.



Son illər Azərbaycanda təşkil edilən Beynəlxalq Turizm və Səyahətlər Sərgisi ölkəmizin turizm potensialına marağı xeyli artırmışdır. 15 ildir ənənəvi olaraq keçirilən bu tədbirlərin açılış mərasimlərində ölkə Prezidenti də iştirak edir.

Dünya İqtisadi Forumu (DİF) "2015-ci il üçün səyahət və turizm rəqabətliliyi hesabatı"nda Azərbaycan 141 ölkə arasında insan resursları və əmək bazarı göstəricisinə görə 36-cı yeri tutmuşdur. Hazırda turizm sənayesi ölkə üzrə ümumdaxili məhsulun 4 faizini təşkil edir. Azərbaycanda 250-dən çox turizm şirkəti və 570-dən çox yerləşdirmə yeri fəaliyyət göstərir. Son on ildə ölkəmizə gələn turistlərin sayı 5 dəfədən çox artıb.

Azərbaycan bu gün böyük beynəlxalq tədbirlər məkanına çevrilib. Ölkəmiz bir çox mədəniyyət, idman və digər sahələr üzrə beynəlxalq tədbirlərə, o cümlədən, ənənə halını almış Dünya Mədəniyyətlərarası Dialoq və Bakı Beynəlxalq Humanitar forumlarına layiqincə ev sahibliyi edir. Eyni zamanda, Bakıda böyük uğurla keçirilən birinci Avropa Oyunları, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu ölkəmizin turizm potensialının təbliğində əhəmiyyətli rol oynadı. Şübhəsiz ki, paytaxtımızda baş tutacaq Formula 1 Avropa Qran-pri yarışı da turizmin inkişafına öz təsirini göstərəcək. Belə mötəbər tədbirlərin keçirilməsi ölkəmizin dünyada artan nüfuzunu bir daha sübut edir.

Azərbaycan xalqının qonaqpərvərlik və tolerantlıq ənənələri hər zaman ölkəmizə gələn turistlərin diqqətini cəlb edir. Turizm məqsədilə Azərbaycana səfər etmək istəyən bütün turistlərin rahat, təhlükəsiz istirahəti üçün zəruri şərait yaradılmışdır.

Bütün bunlar Azərbaycanın yaxın gələcəkdə turizm ölkəsinə çevriləcəyinə böyük inam yaradır.

***Mehdi MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

***Məqalə Azərbaycan Mətbuat Şurasının və Mədəniyyət və Turizm Nazirliyinin "Azərbaycan turizmi: mövcud vəziyyət və perspektiv imkanların dəyərləndirilməsi zərurəti" müsabiqəyə təqdim olunur.***